# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 iyul 2026-cı il, cümə axşamı
№ 128 (7195)
Qiymətі 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Yeni geosiyasi reallıqlar fonunda Bakı-Berlin tərəfdaşlığı

## Azərbaycanın yüksələn beynəlxalq nüfuzu Avropa ilə tərəfdaşlığı dərinləşdirir



Bax səh. 2

## Sülhdən enerjiyə: Bakı-Berlin münasibətlərinin yeni gündəliyi

Bax səh. 3

## Şərəfli inkişaf yolu: milli maraqların qorunmasında mətbuatın rolu

Milli mətbuatımızın 151 illik tarixi özündə dünənimiz, bu günümüz, və gələcəyimizlə bağlı mühüm məqamları əks etdirir. 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. “Əkinçi”nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Bu gün Azərbaycan mediası “Əkinçi” ənənələrinə sadiq qalaraq maarifçilik missiyasını uğurla davam etdirir, dövrün çağırışlarını yüksək səviyyədə cavablandırır.

Milli mətbuatımız şərəfli və mütərəqqi inkişaf yolu keçib. Müstəqillik dövründə, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olması ilə bütün sahələrdə, o cümlədən mətbuatda davamlı uğurlara yol açıldı. Belə ki, ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan...

Bax səh. 5

## 33 il öncə bu gün...

### Artıq Ağdamın işğal gününü qeyd etmirik



Bax səh. 4

## YAP Səbail rayon təşkilatı Milli Mətbuat Günü münasibətilə tədbir keçirib

Bax səh. 5

## Tariflər 12 faizə qədər qalxa bilər...

Bax səh. 7

## Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri dünya mediasının diqqətində...

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri təkcə bu ölkənin dövlət, teleradio və regional mətbuatında deyil, eyni zamanda, qlobal xəbər nəşrlərinin, maliyyə-birja portallarının və nüfuzlu təhlil mərkəzlərinin diqqət mərkəzində olub.

Beynəlxalq informasiya məkanında dərc olunan materialların həcmi və məzmun dinamikası Berlin görüşlərinin regional çərçivədən çıxaraq Avropanın enerji arxitekturasına və qlobal geostrateji balansa bilavasitə təsir edən mühüm siyasi hadisə kimi qiymətləndirildiyini göstərir. Səfərlə əlaqədar Almaniyanın və dünyanın 70-dən çox aparıcı media resursunda dərc edilən analitik məqalələrin, xəbərlərin və rəsmi bəyanatların məzmunu bir neçə konseptual istiqamətdə dəyərləndirilib və ətraflı təhlil edilib. Almaniya mediasında səfərin dinamikası əsasən enerji təhlükəsizliyi, iqtisadi institusionallaşma və ikitərəfli gündəlik əsasında təqdim olunub. Bu ölkənin dövlət qurumlarının resursları, milli teleradio yayımları, maliyyə xəbərləri portalları və regional mətbuatı Azərbaycan Prezidentinin səfərini...

Bax səh. 4

## Qlobal süni intellekt çağırışlarına birgə cavab



Bax səh. 6

## ABŞ Konqresində hökumətin maliyyələşdirilməsi haqqında qanun layihəsi qəbul edilib



Bax səh. 6



# Yeni geosiyasi reallıqlar fonunda Bakı-Berlin tərəfdaşlığı

## Azərbaycanın yüksələn beynəlxalq nüfuzu Avropa ilə tərəfdaşlığı dərinləşdirir

Qlobal mühitdə formalaşan yeni reallıqlar özlüyündə münasibətlər sisteminin də yeni mərhələyə keçidini zəruri edib. Belə ki, artıq proseslərin inkişafı yalnız böyük güc mərkəzlərinin, iqtisadi cəhətdən meqaimkanlara sahib dövlətlərin diqtəsi ilə deyil, həm də orta güclərin maraqları və strateji yol xəritələri üzərindən təmin olunur. Bu mənada, Azərbaycanın son illərdə milli maraqlara əsaslanan, qarşılıqlı faydalı əməkdaşlığı təşviq edən və beynəlxalq hüququn prinsiplərinə söykənən xarici siyasət kursu qlobal miqyasda diqqət çəkir - Bakının yürütdüyü praqmatik siyasi xətt müxtəlif siyasi və iqtisadi mərkəzlərlə, hətta qütblərlə münasibətlərin paralel şəkildə inkişaf etdirilməsinə, regional və beynəlxalq sabitliyə töhfə verilməsinə imkan yaradıb.

Artıq Azərbaycan kontingentlərarası münasibətlər sistemində orta güc statusu ilə stabilləşdirici rol oynamaqdadır. Hərtərəfli strateji əlaqələrə malik olduğumuz Çin, strateji xartiya imzaladığımız ABŞ ilə yanaşı, artıq Avropa İttifaqı da Bakının bölgədəki rolunu yüksək dəyərləndirir, təqdir edir. Azərbaycanın yürütdüyü siyasətin mühüm istiqamətlərindən biri Avropa İttifaqı və onun üzv dövlətləri ilə əməkdaşlığın genişləndirilməsidir. Son illərdə tərəflər arasında siyasi dialoq, iqtisadi əlaqələr, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, "yaşıl enerji" sahəsində əməkdaşlıq və humanitar münasibətlər yeni məzmun qazanıb. Xüsusilə Cənubi Qafqazın geosiyasi əhəmiyyətinin artması fonunda Azərbaycan Avropa üçün etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir. Enerji resurslarının şaxələndirilməsi, alternativ enerji marşrutlarının yaradılması və dayanıqlı nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində ölkənin həyata keçirdiyi layihələr Avropa İttifaqının strateji maraqları ilə üst-üstə düşür. Yeni beynəlxalq iqtisadi nizamın formalaşdığı şəraitdə Azərbaycan Şərqlə Qərb arasında mühüm tranzit və logistika mərkəzi kimi çıxış edir. Ölkənin yerləşdiyi əlverişli geostrateji mövqe, müasir nəqliyyat infrastrukturu və həyata keçirilən regional layihələr Avrasiya məkanında ticarət və iqtisadi əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan beynəlxalq nəqliyyat dəhlizləri yalnız iqtisadi səmərəlilik baxımından deyil, həm də regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu reallıqlar ölkənin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, Avropa ilə Asiya arasında etibarlı körpü rolunu daha da gücləndirir.

**Berlin Bakının sülh və təhlükəsizlik təşəbbüslərini dəstəkləyir...**

Avropa İttifaqının aparıcı dövlətlərindən olan Almaniya da regionda yaranmış yeni geosiyasi reallıqları nəzərə alaraq Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir. Almaniya Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rolu, iqtisadi potensialını və regional sabitliyin təmin olunmasına verdiyi töhfələri yüksək qiymətləndirir. Eyni zamanda, Berlin Cənubi Qafqazda davamlı sülhün və əməkdaşlığın bərqərar olmasını dəstəkləyərək Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin beynəlxalq hüquq prinsipləri əsasında irəliləməsinin tərəfdarı olduğunu nümayiş etdirir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin sırağagün Almaniyaya baş tutan rəsmi səfəri çərçivəsində keçirilən mətbuat konfransında Almaniya Kansleri Fridrix Merts bəyanatında bildirib ki, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik Almaniya üçün də zəruridir: "Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dincliyə nail olmaqda çox maraqlıdırlar. Bu səbəbdən, cənab Prezident, biz Sizi Almaniyada salamlamaqdan xüsusi olaraq məmnunuq. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına nail olmağınız münasibətilə Sizi təbrik edirik. Bu, tarixi razılaşmadır. Onilliklər davam etmiş münaqişəni onun sayəsində aradan qaldırmaq fürsəti yaranır. Alman və Avropa perspektivindən nəyi edə bilsək, bundan şad olarıq".

Qeyd edilməlidir ki, Azərbaycan Vətən müharibəsində formalaşdırdığı yeni reallıqlarla həm də beynəlxalq hüququn tələblərinin icrasını təmin etdi. Başqa sözlə, Azərbaycan 30 ilə yaxın icra edilməmiş BMT TŞ-nın məlum 4 qətnaməsini icra etdi. Paralel olaraq Azərbaycan postmüharibə dövründə sülh təşəbbüsləri irəli sürməklə yeni nizamın inkişafına xüsusi stimul qazandırıb. Azərbaycan proseslərin inkişafını rasional şəkildə dəyərləndirərək məsələləri qisasçılıq prizmasından deyil, yeni gələcək, yeni münasibətlər sistemi və əməkdaşlıq mühiti çərçivəsindən qiymətləndirib. Nəticə etibarı ilə, Bakının sülh təşəbbüsləri ötən ilin avqustunda Vaşinqtonda reallaşan Sülh Sammiti çərçivəsində sülh sazişi layihəsinin paraflanmasına gətirib çıxardı. Bu isə sülhün bir addımlığı deməkdir. Artıq iki ölkə arasında müəyyən ixrac-idxal prosesləri reallaşır, Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin daşınmasına icazə verilir. Bu, Azərbaycanın sülh prosesindəki davamlı qətiyyətinin göstəricisidir. Berlində keçirilən mətbuat konfransında bəyanatında Prezident İlham Əliyev Almaniyanın Cənubi Qafqazdakı sülh prosesinə verdiyi töhfəyə görə təşəkkür edərək bildirib ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu. Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi: "Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir. Xüsusilə nəzərə alsaq ki, bu gün neft məhsullarının ixracı və idxalı ilə bağlı bir çox problemlər müəyyən səbəblərə görə mövcuddur və eyni zamanda, Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin göndərilməsi də artıq geniş vüsət alıb. Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib.

Yəni biz çox tarixi bir dövr yaşayırıq. Torpaqları uzun illər işğal altında olan Azərbaycan işğala öz gücü ilə son qoydu, ərazi bütövlüyünü bərpa etdi, suverenliyini bərpa etdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü icra etdi, Ermənistana sülh təklif etdi və müsbət cavab aldı. Ona görə yenə də deyirəm, Almaniya hökumətinin də bu sahədə rolunu biz yüksək qiymətləndiririk. Danışıqlar prosesində, o cümlədən Almaniyada xarici işlər nazirləri səviyyəsində görüşlər də keçirilmişdir".

**Müsbət siyasi dialoq mühiti**

Azərbaycan ilə Almaniya arasında siyasi münasibətlər qarşılıqlı hörmət, etimad və beynəlxalq hüququn prinsiplərinə əsaslanan konstruktiv dialoq çərçivəsində inkişaf edir. Hər iki ölkə ikitərəfli əlaqələrin genişləndirilməsinə, siyasi məsləhətləşmələrin intensivləşdirilməsinə və qarşılıqlı maraq doğuran regional və qlobal məsələlər üzrə əməkdaşlığın dərinləşdirilməsinə xüsusi önəm verir. Yüksək səviyyəli qarşılıqlı səfərlər, hökumətlərarası görüşlər və parlamentlərarası əlaqələr siyasi dialoqun davamlı xarakter daşıdığını göstərir. Almaniya Azərbaycanın Cənubi Qafqaz regionunda mühüm tərəfdaşlarından biri kimi çıxış edir və ölkənin enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, eləcə də regional əməkdaşlığın inkişafındakı rolunu yüksək qiymətləndirir. Öz növbəsində, Azərbaycan Almaniyanı Avropa İttifaqının aparıcı siyasi və iqtisadi güclərindən biri kimi dəyərləndirir və ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıdır. Tərəflər arasında mövcud olan açıq siyasi dialoq müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin yaradır və gələcəkdə strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edir. Kansler Fridrix Merts mətbuata bəyanatında bildirib ki, bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır: "Çox şadam ki, ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir. 2025-ci ilin yazında Prezident Ştaynmayer Azərbaycana səfər etmiş ilk alman dövlət başçısı oldu. Bu il, həmçinin parlamentlərimiz arasında intensiv mübadilələr oldu".

Prezident İlham Əliyev də bəyanatında ikitərəfli gündəliyimizin kifayət qədər geniş olduğunu söyləyib: "Biz bu barədə Sizinlə həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüş əsnasında fikir mübadiləsi aparmışıq. Almaniya Avropa İttifaqının aparıcı ölkəsi kimi Cənubi Qafqazda öz təsirini artırmaqdadır. Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir".

**Azərbaycan Almaniyanın enerji təchizatında əsaslı rol oynayır**

Azərbaycan Almaniyanın enerji təminatında mühüm rol oynayan ölkələrdən biridir. Ötən 20 ildə bu ölkəyə neft ixracı sayəsində Almaniyanın enerji-yanacaq kompleksi xeyli inkişaf edib. Bu reallıqları nəzərə alan Almaniya ölkəmizin yürütdüyü enerji siyasətini, o cümlədən Avropa İttifaqının neft və qazla təminatında oynadığı mühüm rolu yüksək dəyərləndirərək respublikamızı etibarlı və sadiq təchizatçı adlandırır. Azərbaycanın 2027-ci ilə qədər təbii qazın təchizat həcmini Aİ bölgəsində ən azı iki dəfə artırmaq planlarını, habelə Avropa coğrafiyasında yeni enerji kollektorlarının şaxələnməsində göstərdiyi iradəni alqışlayaraq region üçün nümunəvi siyasət hesab edir.

Qeyd edək ki, Azərbaycan bu ildən başlayaraq Almaniyaya təbii qaz satmağa başlayıb. Ötən il Azərbaycanın ümumi qaz ixracı 25 milyard kubmetr olub ki, bu həcmin yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Almaniya şirkətləri ilə imzalanan 10 illik müqavilədə ilkin həcm 1,5 milyard kubmetrdir. Kansler Fridrix Merts bildirib ki, Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırlar: "Hazırkı böhran şəraitində xam neftin və Cənub Qaz Dəhlizi ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezident, biz bunları təfərrüatı ilə müzakirə etdik. Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik. Bu gün biz, həmçinin bərpaolunan enerji və hidrogendən istifadənin genişləndirilməsini müzakirə etdik".

Prezident İlham Əliyev mətbuata bəyanatında qeyd edib ki, enerji sahəsindəki əməkdaşlıq istiqamətində də müsbət nəticələr var: "Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə yaşıl enerjisini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır".

**Almaniya Azərbaycanın Şərq-Qərb tranzit bağlantısına böyük əhəmiyyət verir**

Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən əlverişli coğrafi mövqeyi və müasir nəqliyyat infrastrukturu ölkəni Şərq-Qərb tranzit marşrutunun əsas iştirakçılarından birinə çevirib. Almaniya bu strateji üstünlüyü yüksək qiymətləndirərək Azərbaycanın Avrasiyada yükdaşımaların, ticarət əlaqələrinin və logistika zəncirinin dayanıqlığının təmin edilməsində oynadığı mühüm rolu xüsusi vurğulayır. Son illərdə qlobal tədarük zəncirlərində baş verən dəyişikliklər fonunda Orta Dəhlizin əhəmiyyətinin artması Azərbaycan ilə Almaniya arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradıb. İki ölkə arasında bu istiqamətdə əməkdaşlıq təkcə iqtisadi maraqlarla məhdudlaşmır, həm də Avropa ilə Asiya arasında təhlükəsiz, etibarlı və səmərəli yükdaşımaların təmin edilməsinə xidmət edir. Almaniya Azərbaycanın həyata keçirdiyi nəqliyyat və logistika layihələrini regional inteqrasiyanın gücləndirilməsi baxımından mühüm amil kimi dəyərləndirir. Bu əməkdaşlıq qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsinə, ticarət dövriyyəsinin artmasına və Avrasiya məkanında dayanıqlı nəqliyyat əlaqələrinin inkişafına mühüm töhfə verir. Kansler Fridrix Merts deyib ki, Almaniya Azərbaycanın sərmayə proqramına aid təklifi ilə bağlı konstruktiv müzakirələr aparır: "Bu proqram Azərbaycanda fəaliyyət göstərən alman şirkətləri üçün yeni imkanlar aça bilər. Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır. Yeni nəqliyyat və ticarət dəhlizləri birgə istifadə etmək istədiyimiz iqtisadi potensialı yaradır. Cənab Prezident, bildiyiniz kimi, kiçik və orta müəssisələr üçün uzun məsafədə sərmayə yatırmaq çox zaman asan olmur. Yerlərdə münasib çərçivə şərtləri hər zaman olduqca vacibdir".

Bakı Orta Dəhliz vasitəsilə Şərq-Qərb kontentində təhlükəsiz, eyni zamanda etibarlı və sərfəli daşımaçılıq təklif edir. Bu xəttin ən mühüm stansiyalarından biri kimi, Azərbaycan həm də regional təhlükəsizliyin təmini istiqamətində öz töhfələrini verir, bu isə kompleks şəkildə Orta Dəhlizin cəlbediciliyini artırır. Prezident İlham Əliyev mətbuata açıqlamasında deyib ki, bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti var: "Çünki Almaniya şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə edib. Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir. Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur".

**Bakı-Brüssel əlaqələri yeni məcrada...**

Qeyd olunmalıdır ki, Azərbaycan yeni mərhələdə Avropa İttifaqı ilə əlaqələrini də daha müsbət məcrada inkişaf etdirir. Təşkilatın rəhbərlərinin son 7 ayda Bakıya intensiv səfərləri, bu səfərlərdə səsləndirilən əməkdaşlıq bəyanatları və münasibətlərin dinamik inkişaf səviyyəsinə qədəm qoyması ilə bağlı iradə göstərir ki, Aİ Azərbaycanın orta güc statusunu qəbul edir. Vurğulanmalıdır ki, Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyəti böyükdür - təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsi prioritet hədəf olaraq müəyyənləşdirilib. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir. Prezident İlham Əliyev bəyanatında qeyd edib ki, bu il biz həm Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq: "Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək. Almaniya Avropa İttifaqına üzv olan ölkələr arasında lider olduğu üçün burada təbii ki, həm Almaniyanın rolu çox böyükdür, eyni zamanda, gələcək əməkdaşlıq üçün də əminəm ki, Almaniya öz səylərini göstərəcək".

*Pərviz SADAYOĞLU*

# Sülhdən enerjiyə: Bakı-Berlin münasibətlərinin yeni gündəliyi





## Almaniya Azərbaycanın artan geosiyasi rolunu yüksək qiymətləndirir

Azərbaycan son illərdə beynəlxalq münasibətlər sistemində nüfuzlu, etibarlı və fəal tərəfdaş kimi tanınmaqdadır. Xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə yalnız ölkəmizin ərazi bütövlüyünü təmin etmədi, həm də Azərbaycanın geosiyasi çəkisini tamamilə yeni səviyyəyə yüksəltdi. Bu Qələbə ilə Azərbaycan regionun təhlükəsizlik arxitekturasını dəyişdi, beynəlxalq diplomatiyada öz yönünü və istiqamətini diqtə etdi, prosesləri idarə edən bir dövlətə çevrildi. Beləliklə, Bakı artıq tək Cənubi Qafqaz regionunun deyil, Avrasiya məkanının siyasi koordinat sistemində əsas mərkəzdən biri kimi çıxış edir. Bakının qlobal dialoqda fəal iştirakı, beynəlxalq proseslərə realist və praqmatik yanaşması onu orta güc statusu ilə Avropa, Asiya və Afrika kimi 3 fərqli qitədə cərəyan edən geosiyasi müzakirələrin mühüm iştirakçısına çevirib - biz proseslərin nüvəsində yer alırıq.

Bütün bu uğurlu proseslərin əsasında isə Prezident İlham Əliyevin məqsədyönlü xarici siyasət kursu dayanır. Dövlət başçısı yorulmadan Azərbaycanın milli maraqlarını qlobal səviyyədə müdafiə edir, ölkəmizi dünyanın müxtəlif regionlarında formalaşan siyasi gündəmlərin ayrılmaz hissəsinə çevirir. Məhz bunun nəticəsidir ki, Azərbaycan artıq beynəlxalq münasibətlər sisteminin aparıcı aktoru kimi ön plana çıxıb. Paralel olaraq yürüdülən uğurlu enerji siyasəti Bakını transkontinental münasibətlər sistemində əsas söz sahiblərindən birinə çevirib.

## Bu görüş Ukrayna-Rusiya müharibəsini sonlandıracaqsa, əlbəttə ki, biz bunu alqışlayırıq...

Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərindən biri beynəlxalq sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə töhfə verməkdir. Rəsmi Bakı münaqişələrin həllində hərbi eskalasiyadan deyil, dialoq, qarşılıqlı etimad və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan danışıqlar prosesindən çıxış edir. Bu mövqe Azərbaycanın uzun illər işğal və müharibənin ağır nəticələri ilə üzləşmiş dövlət kimi qazandığı tarixi təcrübədən qaynaqlanır. Məhz bu səbəbdən ölkəmiz müxtəlif beynəlxalq platformalarda sülh təşəbbüslərini dəstəkləyir, qlobal əməkdaşlığın genişlənməsinə xidmət edən layihələrdə fəal iştirak edir və beynəlxalq münasibətlərdə konstruktiv dialoqu təşviq edir. Formalaşmaqda olan yeni dünya nizamında dövlətlər arasında qarşılıqlı etimadın, əməkdaşlığın və dinc birgəyaşayış prinsiplərinin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olaraq qalır. Bu yanaşma ölkənin qlobal təhlükəsizlik arxitekturasının gücləndirilməsinə verdiyi töhfələrin əsas mahiyyətini təşkil edir. Qeyd edək ki, bu mövqe Ukrayna-Rusiya müharibəsinə də aiddir - Azərbaycan hər zaman problemin dinc və danışıqlar yolu ilə həllinə çağırışlar edir. Prezident İlham Əliyev bir neçə gün öncə Almaniyaya reallaşan rəsmi səfəri çərçivəsində mətbuat konfransında jurnalistlərin suallarını cavablayarkən bu mövqeyi bir daha təkrarladı. Belə ki, xarici medianın Bakıda qeyri-rəsmi alman-rus görüşü ilə bağlı xəbəri haqqında sualı cavablayarkən Prezident İlham Əliyev qeyd edib ki, bu məlumatı biz "The Times" qəzetindən öyrəndik. Bizim bundan xəbərimiz yox idi: "Təbii ki, belə mötəbər mətbu orqanda çıxan məqaləyə biz diqqətlə yanaşaraq araşdırma aparmışıq və dünən mən Berlinə gəlməzdən öncə Azərbaycan Dövlət Sərhəd Xidmətindən məlumat istəmişəm ki, "The Times" qəzetində adları keçən şəxslər Azərbaycanda bir vaxtda olublar, yoxsa yox. Sizə onu deyə bilərəm ki, bu məlumat təsdiqləndi. İyulun 12-də Berlin-Bakı reysi ilə iki nəfər tanınmış şəxs, - birinin xanım Merkelin administrasiyasının rəhbəri olduğu haqqında məlumat var, - cənab Pofala və cənab Platsik Bakıya gəlmişdilər və iyulun 14-də Bakıdan Berlinə geri qayıtmışdılar. Eyni zamanda, ayın 12-də Rusiyanın keçmiş Baş naziri cənab Zubkov və Rusiya Prezidenti yanında Vətəndaş Cəmiyyəti Şurasının rəhbəri cənab Fadeyev Moskvadan Bakıya gəlmişdilər və biri ayın 13-də, o biri isə ayın 14-də Bakıdan ayrılmışdılar. Bizə bu barədə nə Almaniyadan, nə Rusiyadan hər hansı bir xəbər daxil olmamışdı. Yəni sadəcə olaraq, bizim ərazimiz bizdən xəbərsiz istifadə edilmişdir. Belə bir görüşün olub-olmaması ilə bağlı da mən konkret bir şey deyə bilmərəm. Çünki biz bunu görməmişik. Amma dediyim bu uçuş statistikası deməyə əsas verir ki, belə bir gizli görüş Bakıda keçirilmişdir. Əgər bu görüş Ukrayna-Rusiya müharibəsini sonlandıracaqsa, əlbəttə ki, biz bunu alqışlayırıq".

Prezident qeyd edib ki, bu yaxınlarda Qarabağın Şuşa şəhərində keçirilən Qlobal Media Forumda bildirib ki, istənilən halda müharibə dərhal dayandırılmalıdır: "Bizim əsas məqsədimiz bundan ibarətdir ki, bu müharibə dayansın və bölgədə sülh təmin edilsin".

## Yeni perspektivlər

Sabitlik və təhlükəsizlik öz növbəsində inkişafı və əməkdaşlığı təmin edir. Azərbaycanın regionda yaratdığı yeni təhlükəsizlik arxitekturası, sabitlik qlobal əməkdaşlıq üçün münbit şərait yaradıb. Yeni dövrdə Avrasiyanın mərkəzində ticari imkanlar genişləndirilir, Orta Dəhlizin əhəmiyyəti daha da artır. Bu isə birmənalı şəkildə Bakının qlobal münasibətlər sistemino töhfəsidir. Eyni zamanda, yaranan sabitlik qlobal enerji təchizatında yeni imkanlar açır. Bakı artıq neft-qaz təchizatı ilə yanaşı, həm də elektrik enerjisi ixrac etmək planlarını önə sürür. Azərbaycanın formalaşdırdığı yaşıl enerji hədəfləri Avropa üçün də əlverişlidir - bu isə bütövlükdə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə imkan yaradır. Berlində baş tutan mətbuat konfransında jurnalistlərin suallarını cavablayarkən Kansler Fridrix Merts bildirib ki, Almaniya Azərbaycan ilə əməkdaşlığı, xüsusən də enerji təchizatı sahəsində gələn illərdə intensivləşdirməyi arzulayır: "Almaniyanın nöqteyi-nəzərindən, bizim idxalın, o cümlədən qaz idxalının şaxələndirilməsində böyük marağımız var. Azərbaycan enerjini artıqlaması ilə istehsal edən regiondakı az sayda ölkələrdən biridir. Bu o deməkdir ki, Azərbaycan enerjini istehlak etdiyindən daha çox istehsal edir. Bu baxımdan Azərbaycan Almaniyanın enerji təchizatının təmin edilməsində bizim üçün maraqlı tərəfdaşdır. Bu, xüsusən də Cənubi Almaniyaya aiddir, çünki həmin bölgəyə nəql üçün infrastruktur artıq inkişaf edib və ya genişləndirilə bilər. Buna görə bu, maraqlı müzakirə idi və həmçinin Azərbaycan ilə Almaniya arasında yeni perspektivlər açır".

## Keçən il 25 milyard kubmetr ümumi qaz ixracımız olub ki, yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib

Sirr deyil ki, yeni dövrdə Avrasiyanın enerji xəritəsində mühüm dəyişikliklər baş verib. Müharibə ilə əlaqədar olaraq Rusiyanın enerji ixracı azalır - nəzərə alsaq ki, bu ölkənin neftayırma müəssisələrinin bəzisi artıq sıradan çıxarılıb, yeni dövrdə enerji təminatı ilə bağlı açıq suallar meydana çıxır. Bu halda isə Azərbaycan kimi dövlətlər ön plana çıxır və Avropanın enerji təminatında əsaslı rol alır. Almaniyanın timsalında Azərbaycan bu işi uğurla həyata keçirir. Belə ki, mətbuat konfransında suallara cavab verərkən Prezident İlham Əliyev bildirib ki, Almaniya ilə bizim ümumi ticarət dövriyyəmiz keçən il təqribən, 1,5 milyard dollar ətrafında idi. Bunun böyük hissəsi Almaniyanın Azərbaycana ixracıdır, qalan hissə isə bizim ixracımız. Bizim ixracımızın da əsas hissəsi xam neftdir: "Yəni hesab edirəm ki, Azərbaycan təxminən bir neçə yüz milyon dollar səviyyəsində xam neft təchiz edir və nə qədər lazımdır, o qədər də təchiz edə bilər - həm daxili mənbələrdən, həm də bizim enerji şirkətimiz SOCAR-ın treydinq bölməsindən. Yəni burada hər hansı bir problem yoxdur. O ki qaldı, təbii qaz məsələlərinə, qeyd etdiyim kimi, biz bu ildən başlayaraq Almaniyaya təbii qaz satmağa başlamışıq. Bizim keçən il ümumi qaz ixracımız 25 milyard kubmetr olub. Onun yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib. Bildiyimə görə, Almaniya şirkətləri ilə 10 illik kontrakt imzalanmışdır və ilkin həcm 1,5 milyard kubmetrdir".

## Azərbaycanın ixrac potensialı yüksəkdir...

Azərbaycanın ixrac potensialı kifayət qədər yüksəkdir. Avropaya nəql olunan qazın və ya neftin həcminin artırılması üçün "köhnə qitə" yeni infrastruktur yaratmalıdır. Bunun üçün isə neft-qaz layihələrinə maliyyə dəstəklərini gücləndirmək lazımdır. Jurnalistlərin suallarını cavablandıran Prezident İlham Əliyev qeyd edib ki, artım üçün bir neçə məsələ öz həllini tapmalıdır: "Birincisi, bizə müraciət olmalıdır, yəni həcmin artırılması üçün. İkincisi, mövcud qaz infrastrukturu genişləndirilməlidir. Çünki bu gün həm TANAP, həm TAP tam gücü ilə işləyir və bu kəmərlərdə boş yer qalmayıb. Avropa məkanında yeni interkonnektorlar lazımdır. Əlbəttə ki, buna vəsait lazımdır. Əsas problemlərdən biri də odur ki, Avropa bankları, xüsusilə Avropa İnvestisiya Bankı yaşıl gündəliyə görə neft-qaz layihələrinə maliyyə dəstəyini dayandırmışdır. Beləliklə, bu gün infrastrukturu - Avropanı qazla təchiz edən infrastrukturu genişləndirmək üçün biz başqa mənbələrdən kreditlər almalıyıq. Yaxşı olardı ki, Avropa bankları öz qərarlarına yenidən baxsınlar. Xüsusilə nəzərə alsaq ki, bu gün Yaxın Şərqdə böhran əfsuslar olsun ki, dərinləşir və ənənəvi təchizat zəncirləri qırılıb. Nəzərə alsaq ki, Rusiyanın neftayırma zavodlarının sıradan çıxarılması ilə əlaqədar ənənəvi müştərilərə Rusiya istədiyi qədər neft məhsullarını ixrac edə bilmir. Bütün bu sonu bilinməyən hadisələr davam edir. Ona görə hesab edirəm ki, yaşıl gündəliyi nəzərə almaq şərti ilə bu məsələlərə yenidən baxıla bilər ki, Avropa bankları da neft-qaz layihələrinin işlənməsinə, neft-qaz infrastrukturunun tikintisinə və genişləndirilməsinə vəsait ayırsın. Belə olan halda Azərbaycan Avropa məkanına, o cümlədən Almaniyaya öz qaz ixracını böyük dərəcədə artıra bilər".

## Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu

Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi dəyişikliklər Avropanın enerji siyasətinə ciddi təsir göstərərək alternativ təbii qaz mənbələrinin şaxələndirilməsini strateji zərurətə çevirdi. Rusiya qazının Avropa bazarına ixracının əhəmiyyətli dərəcədə azalması fonunda Azərbaycan etibarlı enerji tərəfdaşı kimi ön plana çıxdı. Cənub Qaz Dəhlizi və onun əsas komponentləri vasitəsilə Avropa ölkələrinə təbii qaz tədarükünün artırılması qitənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Almaniya da Azərbaycanın bu istiqamətdə göstərdiyi töhfəni yüksək qiymətləndirən ölkələr sırasındadır. Rəsmi Berlin Azərbaycanın enerji təchizatında etibarlı tərəfdaş kimi çıxış etməsini Avropanın enerji sabitliyinə verilən mühüm dəstək kimi dəyərləndirir. Almaniya tərəfi qarşıdakı dövrdə enerji sahəsində əməkdaşlığın daha da genişləndirilməsində, xüsusilə təbii qaz, bərpaolunan enerji, yaşıl hidrogen və enerji keçidi istiqamətlərində birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu ifadə edir. Bu əməkdaşlıq təkcə iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına deyil, həm də Avropanın uzunmüddətli enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən strateji tərəfdaşlığın möhkəmlənməsinə töhfə verir. Mətbuat konfransında jurnalistlərin suallarına cavab olaraq Almaniya Kansleri Fridrix Merts bildirib ki, dörd il yarım əvvəl Rusiyadan qaz idxalını dayandırdıqdan sonra biz təbii ki, yeni təchizat mənbələrini axtarmağa başladıq və Azərbaycan bu baxımdan mühüm rol oynayır: "Bu, iqtisadi baxımdan bizim üçün maraqlı perspektivdir. Biz, həmçinin digər təchizat mənbələrini də axtardıq və müəyyən etdik. Bu baxımdan mən bir daha Prezident Əliyevə təşəkkür edirəm ki, bu məsələni bu gün müzakirə edə bildik və Azərbaycandan daha böyük həcmdə qazın əldə olunması imkanlarını araşdırdıq. Bu, həmçinin birgə razılaşmamızın bir hissəsidir və Azərbaycanla aparacağımız növbəti müzakirələrin mövzusu olaraq qalacaq".

*P.İSMAYILOV*

# Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri dünya mediasının diqqətində...

Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri təkcə bu ölkənin dövlət, teleradio və regional mətbuatında deyil, eyni zamanda, qlobal xəbər nəşrlərinin, maliyyə-birja portallarının və nüfuzlu təhlil mərkəzlərinin diqqət mərkəzində olub.

Beynəlxalq informasiya məkanında dərc olunan materialların həcmi və məzmun dinamikası Berlin görüşlərinin regional çərçivədən çıxaraq Avropanın enerji arxitekturasına və qlobal geostrateji balansa bilavasitə təsir edən mühüm siyasi hadisə kimi qiymətləndirildiyini göstərir. Səfərlə əlaqədar Almaniyanın və dünyanın 70-dən çox aparıcı media resursunda dərc edilən analitik məqalələrin, xəbərlərin və rəsmi bəyanatların məzmunu bir neçə konseptual istiqamətdə dəyərləndirilib və ətraflı təhlil edilib. Almaniya mediasında səfərin dinamikası əsasən enerji təhlükəsizliyi, iqtisadi institusionallaşma və ikitərəfli gündəlik əsasında təqdim olunub. Bu ölkənin dövlət qurumlarının resursları, milli teleradio yayımları, maliyyə xəbərləri portalları və regional mətbuatı Azərbaycan Prezidentinin səfərini, ilk növbədə, rəsmi Berlinin enerji təchizatının şaxələndirilməsi və iki ölkə arasında iqtisadi əlaqələrin yeni institusional müstəviyə qaldırılması kontekstində işıqlandırıblar.

Almaniya Hökumətinin rəsmi portalı (Bundesregierung.de) və Federal Prezidentin dəftərxanası (Bundespraesident.de) dövlətimizin başçısının Berlindəki görüşləri barədə operativ məlumatlar yayıblar. Məlumatlarda Almaniya Kansleri Fridrix Merts və Prezident Frank-Valter Ştaynmayerin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərində ikitərəfli siyasi dialoqun dinamikası, Cənubi Qafqazda sabitlik və təhlükəsizlik məsələlərinin ətraflı müzakirə olunduğu diqqətə çatdırılıb. Almaniyanın əsas informasiya agentliyi olan DPA (Deutsche Presse-Agentur) ilə yanaşı, geniş oxucu auditoriyasına malik "Stern", "News.de", "Klamm.de", "Deutsche Welle" kimi media orqanları da rəsmi protokollara və müzakirə olunan əsas mövzulara geniş yer ayırıblar.

Dövlətimizin başçısının rəsmi səfəri ilə bağlı Almaniya mediasında ən böyük maraq doğuran istiqamətlərdən biri enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsi olub. Almaniyanın "N-TV", "Stern", "Deutschlandfunk" (DLF) və "Zeit", "Deutsche Welle" (DW), "Berliner Zeitung", "Ostdeutsche Allgemeine", "Epoch Times" və "Energy News Magazine" kimi nüfuzlu media qurumlarının məlumatlarında Almaniyanın ənənəvi enerji mənbələrindən asılılığını azaltmaq strategiyasında Azərbaycanın həlledici rol oynadığı, Kansler Fridrix Mertsin mətbuat konfransında səsləndirdiyi fikirlərə istinadla Almaniyanın Azərbaycandan təbii qaz və neft idxalını artırmaq niyyətində olması barədə xəbərlər yayılıb. Həmçinin materiallarda Kansler Fridrix Mertsin öz bəyanatında Azərbaycanın Almaniyanın enerji təchizatının təmin edilməsində maraqlı tərəfdaş olduğunu vurğulaması xüsusi qeyd olunub. Həmin nəşrlərdə yayımlanan məqalələrdə, eləcə də maliyyə sahəsində fəaliyyət göstərən "Marketscreener", "Onvista", "Business-Panorama" portallarının materiallarında Azərbaycan qazının Mərkəzi Avropa bazarlarına nəqli imkanları xüsusi qeyd olunub, Prezident İlham Əliyevin Avropaya enerji nəqlini genişləndirmək üçün hasilat və tranzit infrastrukturuna Avropa İttifaqı tərəfindən adekvat maliyyə və investisiya dəstəyinin göstərilməsi ilə bağlı prinsipial mövqeyi işıqlandırılıb.

Almaniyanın birja və biznes mediası səfərin praktiki-iqtisadi əhəmiyyətinə və nəticələrinə xüsusi diqqət ayırıb. Ölkənin regional xəbər şəbəkələri - "Presse Augsburg", "Regionalheute", "Pfalz-Express", "Hasepost", "Regiojournal Saarland", "Foerde.news" və "Klamm.de" kimi portallar səfər çərçivəsində Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və onun fəaliyyətinə dair Birgə Bəyannamənin imzalanmasına geniş yer verib. Eyni zamanda, "Deutsche Börse" (Almaniya Birjası) və "Yahoo Finance" saytlarında Azərbaycan ilə enerji və sənaye sahəsində əldə olunan razılaşmaların Avropanın kapital bazarlarındakı müsbət əks-sədası təhlil edilib.

Siyasi-analitik yayımlar həyata keçirən nüfuzlu media orqanları - "Welt", "Handelsblatt", "Deutsche Börse", "Neue Westfalische" və "Upday" nəşrləri isə Prezident İlham Əliyevin və Kansler Fridrix Mertsin yerli jurnalistin sualına cavab olaraq alman siyasətçilərin Bakıda keçirdikləri iddia olunan qapalı təmaslar barədə fikirlərinə yer verib.

Digər ölkələrin media orqanları da Prezident İlham Əliyevin Berlinə rəsmi səfərini və keçirilən mətbuat konfransını diqqətdə saxlayıblar. Aİ mediasında səfərin hüquqi tərəflərinə diqqət yetirilib. İtaliyanın "Agenzia Nova" agentliyi səfərin hüquqi bazasına, strateji çərçivənin genişlənməsinə xüsusi həssaslıqla yanaşıb. Nəşr Prezident İlham Əliyev və Kansler Fridrix Mertsin imzaladıqları ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamənin hüquqi və siyasi mahiyyətinə geniş yer ayıraraq, həmin sənədin Bakı ilə Berlin arasında ikitərəfli əlaqələri keyfiyyətcə daha yüksək, institusional müstəviyə qaldırdığını vurğulayıb.

Prezident İlham Əliyevin Almaniyaya səfəri Türkiyənin aparıcı televiziya kanalları, xəbər agentlikləri, çap mediası və xəbər saytlarının diqqət mərkəzində olub. Türkiyənin media orqanları Almaniyada görüşləri zamanı Azərbaycan liderinin qaldırdığı mövzular, o cümlədən Prezident İlham Əliyevin çıxışlarında əsas məqamlar barədə qardaş ölkənin ictimaiyyətini məlumatlandırıb. Qardaş ölkənin bir sıra xəbər agentlikləri və televiziya kanalları Azərbaycan liderinin Berlindəki çıxışlarını canlı yayımlayıb. Bakının enerji sektorunda Avropa ölkələri ilə fəal əməkdaşlığa hazır olması barədə Azərbaycan Prezidentinin fikirlərinə də geniş yer ayrılıb. Eləcə də, "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin imzalanmasına xüsusi diqqət yetirilib.

Gürcüstanın aparıcı informasiya portalları və televiziyaları da Azərbaycan Prezidentinin Almaniyaya səfərini geniş işıqlandırıb. Belə ki, imedinews.ge, interpressnews.ge, 1tv.ge, palitranews.ge portallarında Azərbaycan Prezidentinin səfəri, keçirdiyi görüşlər, eləcə də Almaniya Kansleri ilə birlikdə mətbuata bəyanatından materiallar yayıblar.

Bundan əlavə, beynəlxalq xəbər agentlikləri və aparıcı xarici nəşrlər - "Reuters", "Bloomberg", "US News", "Kyiv Post", "Meduza", "Nau.ch", həmçinin Rusiyanın "TASS", "Kommersant", "RBC.ru", "Lenta.ru", "The Moscow Times" və "Forbes Russia" resursları əsas diqqəti mətbuat konfransına yönəldiblər. Həmin nəşrlər mətbuat konfransında səsləndirilən fikirlərə istinadla Almaniyanın və Rusiyanın sabiq rəsmilərinin Bakıda keçirdikləri qeyri-rəsmi təmaslar barədə məlumatlar yayımlayıblar.













**N.BAYRAMLI**

# 33 il öncə bu gün...

## Artıq Ağdamın işğal gününü qeyd etmirik

**Azərbaycanın dilbər guşələrindən biri olan Ağdam rayonu uzun illər Ermənistanın işğalı altında qalıb. 1993-cü il iyulun 23-də Ağdam şəhəri də daxil olmaqla rayonun böyük hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Bu gün həmin ağrılı-acılı hadisələrdən 33 il ötür...**

### XVIII əsrdə təməli atılan şəhər...

Ağdam rayonu Qarabağ düzünün dağətəyi hissəsində yerləşir. Əsası XVIII əsrdə qoyulan Ağdam şəhəri qədim tarixi məkanlardan biridir. Ağdamda qədim tarixə malik çoxlu memarlıq və incəsənət abidələri var. Onlardan XIX əsrdə tikilmiş türbəni, Xanoğlu türbəsini, Pənah xanın türbəsini və imarətini, iki sandığabənzər abidəni və XV əsrə aid Sərdabəni qeyd etmək olar.

33 il öncə Ermənistan tərəfindən rayonun 1094 kvadratkilometr ərazisinin 882 kvadratkilometri işğal edildi. Ermənilər qadın, uşaq və yaşlılara fərq qoymadan dinc insanları vəhşicəsinə qətlə yetirərək insanlığa qarşı cinayətlər törətdilər. Rayonun müdafiəsi uğrunda erməni işğalçılarına qarşı 5 ildən artıq gedən döyüşlərdə 5 min 897 nəfər şəhid olub, 3 min 531 nəfər yaralanıb. İşğal dövründə rayona 13 milyard 135 milyon dollar məbləğində ziyan dəyib.

Rayonun inzibati ərazisinə 1 şəhər, 14 qəsəbə, 123 kənd daxildir. Rayon mərkəzi Qarqar çayından 3 kilometr məsafədə - Qarabağ düzünün cənub-şərqində yerləşir. İşğaldan əvvəl Ağdamın 143 min nəfər əhalisi olub. Rayonun işğal edilmiş ərazisində 38 kolxoz və sovxoz, 24 tikinti təşkilatı, 12 sənaye müəssisəsi, 74 məktəb, 105 səhiyyə müəssisəsi, 271 mədəniyyət evi, 99 klub olub. Qədim tarixə malik Qarağacı qəbiristanlığı, Xocalı soyqırımı qurbanlarının da dəfn edildiyi I və II Şəhidlər xiyabanları erməni vəhşiliyinə məruz qalıb.

Ağdam Bakıdan sonra ölkəmizdə ən çox qalereyaya, sərgi salonlarına və muzey eksponatlarına malik ikinci şəhər olub. Rayon ərazisində qeydiyyatda olan 134 tarix mədəniyyət abidəsi, 4 dünya, 2 ölkə, 130 yerli əhəmiyyətli memarlıq və arxeoloji abidə olub. Həmin abidələrin 75-i işğal zonasında qalmışdı. İşğaldan əvvəl rayon ərazisində 3 min 6 hektar meşə sahəsi mövcud idi. Təbiət abidəsi kimi qorunan Ağdam şəhərində yaşı 150-250 il olan 14, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı məhv edilib. 64,863 min kubmetr mişar daşı, 140,464 min ton Çobandağ əhəngdaşı, həmçinin 44,708 min tonluq Boyəhmədli və 25, 197 min tonluq Şorbulaq gil yataqları işğal altında qalmışdı.




### Ağdamlılar doğma yurda qayıdacaqlarına inanırdılar...

İşğal dövründə ağdamlı məcburi köçkünlərin sosial təminatı və mənzil şəraitinin yaxşılaşdırılması dövlət siyasətinin əsas prioritetlərindən biri olub. Ulu Öndər Heydər Əliyev 2001-ci ilin sentyabrında imzaladığı fərmanla Quzanlı, Xındırıstan, Ayaq Qərvənd və Ergi ərazilərində 500 mənzillik yaşayış qəsəbələri salındı. Bu məhəllələrdə bütün lazımi kommunal xidmətlər təşkil olundu, məktəblər, tibb məntəqələri, uşaq bağçaları və digər infrastruktur obyektləri istifadəyə verildi. 2004-cü il fevralın 4-də isə Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncama əsasən, çadır şəhərciklərində və yük vaqonlarında məskunlaşmış 3860 ailə üçün Ağdam, Goranboy və Ağcabədi rayonlarında yeni yaşayış məntəqələri salındı. Bu ailələrə maliyyə yardımı göstərildi, torpaq sahələri ayrıldı və məşğulluqlarının təmin olunması üçün zəruri tədbirlər həyata keçirildi.

Məcburi köçkünlük həyatı yaşasalar da, ağdamlılar daim inanırdılar ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qüdrətlənən dövlətimizin üçrəngli bayrağı yenidən Ağdamda və digər işğal olunmuş torpaqlarda dalğalanacaq. Nəhayət, həmin gün gəldi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu əzəli torpaqlarımızın azad olunması uğrunda əks-hücum əməliyyatlarına başladı. 44 gün davam edən Vətən müharibəsi zamanı kəndbəkənd, qarışbaqarış torpaqlar azad olundu.



Nəticədə, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusunun gücü qarşısında müqavimət göstərməyin mümkünsüz olduğunu anlayaraq, 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Prezident İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanan üçtərəfli bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana döyüşsüz qaytarıldı. Beləliklə, 27 il işğal altında olan Ağdam rayonu qan tökülmədən azad edildi və Azərbaycan Ordusu həmin gün rayona daxil oldu. Ermənistanın işğalçı ordusunun işğalı altında olduğu 27 ildən artıq dövrdə rayon ərazisində daş üstündə daş qalmamışdı. Bir vaxtlar gözəlliyi, füsunkarlığı ilə göz oxşayan Qarabağın baş qapısı sayılan Ağdam ölü şəhəri xatırladırdı. Təsadüfi deyil ki, bir sıra xarici KİV-lərdə onu obrazlı olaraq "Qafqazın Xirosiması", "Ruhlar şəhəri" adlandırmışdılar.

### Yeniləşən Ağdam!

2020-ci il noyabrın 23-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinə səfər etdilər. Dövlət başçısı şəhərdə Azərbaycanın üçrəngli bayrağını ucaltdı. Ötən 5 ildə Ağdam şəhərində bir sıra mühüm infrastruktur layihələri icra olunub. Ağdamın Baş planı aparıcı beynəlxalq şirkətlər tərəfindən hazırlanıb və təsdiqlənib. 2021-ci il mayın 28-də Prezident İlham Əliyevə Ağdam şəhərinin Baş planı təqdim olunub və həmin gün Ağdam şəhərinin bərpasının təməl daşı qoyulub.

Bundan əlavə, Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, Ağdam şəhərinin işğaldan azad edildiyi noyabrın 20-si Ağdam Şəhəri Günü kimi qeyd olunur.

Artıq bir neçə ildir ki, keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Ağdama da insanların dönüşü başlayıb. Belə ki, ilk olaraq rayonun bir neçə kəndinə Böyük Qayıdış reallaşıb. 2025-ci ilin dekabrında isə Ağdam şəhərinə ilk köç baş tutub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən il dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.

Beləliklə, yenidən qurulan müasir şəhər illərdən bəri doğma yurda qayıtmaq arzusu ilə yaşayan sakinlərə öz qapısını açıb. Rayonda gedən tikinti-quruculuq işləri isə getdikcə yeni vüsət alır - sosial obyektlər, binalar və mənzillər tikilir, abad küçə və prospektlər salınır. Abadlığı və gözəlliyi ilə həmişə göz oxşamış Ağdamda sıralanan evlərin ağ damları onun yenə də abad, müasir yaşayış məskəninə və ölkəmizin ən böyük sənaye mərkəzlərindən birinə çevriləcəyini göstərir.

**Nardar BAYRAMLI**

# Şərəfli inkişaf yolu: milli maraqların qorunmasında mətbuatın rolu

Milli mətbuatımızın 151 illik tarixi özündə dünənimiz, bu günümüz, və gələcəyimizlə bağlı mühüm məqamları əks etdirir. 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Bu gün Azərbaycan mediası "Əkinçi" ənənələrinə sadiq qalaraq maarifçilik missiyasını uğurla davam etdirir, dövrün çağırışlarını yüksək səviyyədə cavablandırır.

Milli mətbuatımız şərəfli və mütərəqqi inkişaf yolu keçib. Müstəqillik dövründə, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olması ilə bütün sahələrdə, o cümlədən mətbuatda davamlı uğurlara yol açıldı. Belə ki, ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırıldı, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradıldı, problemlərin həlli, iqtisadi müstəqilliyin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görüldü.

Ulu Öndər Heydər Əliyevin 1998-ci ilin 6 avqust tarixində imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman mətbuatın bugünkü inkişafının başlanğıcı oldu. Azad mətbuatın inkişafı istiqamətində atılan addımlar davamlılığı ilə diqqətdədir. Ümummilli Liderin bu diqqət və qayğısı ümumiləşdirilmiş şəkildə Onun 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsində özünün aydın ifadəsini tapır. Dahi şəxsiyyət hər zaman bu çağırışı edirdi ki, mətbuat obyektiv və qərəzsiz olmalı, həqiqətləri olduğu kimi ictimaiyyətə çatdırmalıdır. Cəmiyyətin informasiya tələbatının yüksək səviyyədə təmin edilməsi əsas çağırışlardan idi. Ulu Öndərin media nümayəndələri ilə mütəmadi görüşləri, onların problemləri ilə yaxından maraqlanması, həlli istiqamətində mühüm addımlar atması media ictimaiyyəti tərəfindən yüksək dəyərləndirildi, onlarda məsuliyyət hissini daha da artırdı. Digər sahələrdə olduğu kimi, mətbuatda da 1993-2003-cü illərdə yaradılan möhkəm təməl sonrakı mərhələdə davamlı uğurları şərtləndirdi, müasir çağırışların yüksək səviyyədə yerinə yetirilməsinə stimul verdi.



*Xatirə Əliyeva,*
*Əməkdar jurnalist*

Dövlət başçısı İlham Əliyev bu çağırışı edir ki, bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda ənənəvi media ilə yanaşı, rəqəmsal platformaların inkişafı üçün geniş imkanlar yaradılıb. Jurnalistlərin peşəkarlığının artırılması təmin edilib, informasiya təhlükəsizliyinin qorunması və dezinformasiyaya qarşı mübarizə media sahəsində əsas prioritetlərdən biri kimi müəyyən olunub.

2020-ci il 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz bütün sahələrdə yenilikləri, təkmilləşməni zərurətə çevirdi. Bu məqamı xüsusi qeyd etməliyik ki, Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışdı. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə media cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynadı, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirdi.

Qalib, yeni dövrə qədəm qoyan Azərbaycanın mətbuatı yeni hədəfləri ilə diqqətdədir. Dövlətimizin başçısı İlham Əliyev tarixi Zəfərimizin reallıqları əsasında 2021-ci ilin 12 yanvar tarixində "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman imzaladı. Məqsəd ölkədə medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasıdır.

Tarixi Zəfərimizin reallıqları, eyni zamanda, yeni "Media haqqında" Qanunun qəbulunu zərurətə çevirdi. 2021-ci ilin dekabr ayında qəbul olunmuş qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır. Atılan addımların davamlılığı mətbuata diqqət və qayğının dövlət siyasətinin prioritet istiqaməti olduğunu, bu baxımdan, dövrün çağırışlarına uyğun olaraq təkmilləşmənin həyata keçirilməsini bir tələbə çevirdiyini nümayiş etdirir.

Mediamız qalib ölkənin mətbuatı adını yüksək səviyyədə qoruyur, dövrün hər bir çağırışını fəaliyyətində öndə saxlayır. Bu günlərdə azad Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu 53 ölkədən 160 qonağı, o cümlədən 30 xəbər agentliyinin nümayəndələrini, 60-dan artıq media qurumunu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilatı və təsisatı bir araya gətirdi. Son dörd il ərzində forumun 81 ölkənin 600-ə yaxın media nümayəndəsini qlobal problemlərin müzakirəsi üçün Şuşaya toplaması, bu məkandan Azərbaycanın mesajlarını beynəlxalq ictimaiyyətə çatdırması informasiya cəbhəsində üstünlüyümüzün qorunmasına öz töhfəsini verir. Cənab İlham Əliyevin vurğuladığı kimi, informasiya məkanında qazandığımız Zəfər döyüş meydanında qazandığımız şanlı Qələbəmizin ayrılmaz parçasıdır. Azərbaycan mediası dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi hər bir çağırışın, hər bir bəyanatın, işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərlə bağlı fikirlərinin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır. Prezident İlham Əliyevin yerli və xarici mətbuata hər bir müsahibəsi Azərbaycan reallıqlarının təbliğində, regionda və dünyada baş verən hadisələrlə bağlı ölkəmizin mövqeyinin təqdimatında zəngin mənbədir.

Azərbaycan mətbuatı bütün imkanlardan səmərəli istifadə edərək bütün bu reallıqları əsaslı şəkildə ölkə və beynəlxalq ictimaiyyətə çatdırır. Güclü, qüdrətli, qalib, yeni dövrə qədəm qoyan Azərbaycan hər birimizin qürur mənbəyidir.

# YAP Səbail rayon təşkilatı Milli Mətbuat Günü münasibətilə tədbir keçirib

















Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı 22 İyul - Milli Mətbuat Günü münasibətilə tədbir keçirib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev medianın milli maraqların qorunmasında rolundan danışıb. O bildirib ki, 1875-ci il iyulun 22-də nəşr olunan "Əkinçi" qəzeti Azərbaycan milli mətbuatının əsasını qoymaqla yanaşı, xalqın maariflənməsinə, ana dilinin inkişafına və milli özünüdərk prosesinin güclənməsinə mühüm töhfə verib. M.Nağıyev qeyd edib ki, 151 illik zəngin inkişaf yolu keçən Azərbaycan mətbuatı müxtəlif tarixi mərhələlərdə milli dəyərlərin təbliğində, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və ictimai rəyin formalaşmasında mühüm xidmət göstərib.

YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli bildirib ki, müstəqillik dövründə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə söz və mətbuat azadlığının təmin olunması və media sahəsində həyata keçirilən islahatlar milli mətbuatın inkişafında yeni mərhələnin əsasını qoyub. O, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, medianın hüquqi bazasının təkmilləşdirilməsi, rəqəmsal transformasiyanın sürətləndirilməsi və peşəkar jurnalistikanın inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca milli mətbuatımızın keçdiyi zəngin inkişaf yolundan geniş bəhs edib. O, medianın bundan sonra da üzərinə düşən vəzifələri obyektivlik, qərəzsizlik, məsuliyyət prinsiplərinə sadiq qalaraq layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

"Olaylar" İnformasiya Agentliyinin rəhbəri Yunus Oğuz, Əməkdar jurnalist Etibar Babayev, Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli və "Tusi" Xeyriyyə Cəmiyyətinin İdarə Heyətinin sədri Yəhya Babanlı çıxışlarında cəmiyyətin inkişafında və dövlət maraqlarının qorunmasında mətbuatın rolundan danışıblar.

Sonra bir qrup jurnalistə fəxri fərman təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda konsert proqramı təqdim olunub.



# Qlobal süni intellekt çağırışlarına birgə cavab

Dördüncü sənaye inqilabı dövründə dünya sürətlə dəyişir və burada əsas məqamlardan biri süni intellektin rolunun sürətlə artmasıdır. Deyə bilərik ki, artıq süni intellekt həyatın ayrılmaz hissəsinə çevrilib. Süni intellekt sayəsində mürəkkəb məsələlərin asan həlli tapılır, zaman sərfi ölçüyəgəlməz dərəcədə azalır, daha az işçi qüvvəsi ilə daha böyük həcmlərdə işlər yerinə yetirilir...

Bütün bunlar həyatın asanlaşması anlamına gəlirmi? Suala birmənalı şəkildə "hə" cavabı vermək çətindir. Hər halda beynəlxalq miqyasda izlənilən proseslər onu deməyə əsas verir ki, dünyada süni intellektin yaratdığı reallıqların qəbul edilməsinin özü də ciddi müzakirə predmetinə çevrilib. Burada da qlobal həmrəyliyə, kordinasiyalı fəaliyyətlərə ehtiyac duyulur. Bugünlərdə Çinin Şanxay şəhərində beynəlxalq Süni İntellekt Konfransı (WAIC) çərçivəsində Dünya Süni İntellekt Əməkdaşlığı Təşkilatının yaradılması da yaranan çağırışlara birlikdə cavab tapılması məqsədi daşıyır.

Qeyd edək ki, konfrans 2018-ci ildən bəri hər il təşkil olunur. Bu platforma süni intellekt sahəsində əsas sənaye liderlərini Şanxayda bir araya gətirir. Burada iri şirkətlərin rəhbərləri, dövlət rəsmiləri, alim və ekspertlər iştirak edirlər. Onlar ələqə qurur və süni intellekt texnologiyalarının inkişafı və tətbiqinin gələcək yollarını müzakirə edirlər.

**Süni intellekt sahəsində beynəlxalq əməkdaşlıq**

Yeni dünya qurumunun yaradıldığını konfransda Çin Xalq Respublikasının Sədri Si Cinpin bəyan edib. Təşkilatın yaradılması barədə sazişi 29 ölkənin nümayəndəsi imzalayıb. İmzalanma mərasimində BMT-nin Baş katibi Antonio Quterreş də iştirak edib.

Sazişə əsasən, Dünya Süni İntellekt Əməkdaşlıq Təşkilatı BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əməl edən və geniş məsləhətləşmələr, birgə töhfələr və ortaq faydalar vizyonunu dəstəkləyən müstəqil hökumətlərarası beynəlxalq təşkilatdır.

Qurum süni intellektdə beynəlxalq əməkdaşlığı və qlobal idarəetməni təşviq etməyi, süni intellektin faydalı, təhlükəsiz və ədalətli şəkildə inkişaf etməsini təmin etməyi və bəşəriyyətin rifahına töhfə verməyi hədəfləyir. Onun qərargahı Çinin Şanxay şəhərində yerləşəcək.

**Süni intellekt sahəsində lider ölkələr**

Hazırda dünyada süni intellekt sahəsində ABŞ liderdir, Çin ikinci, Britaniya isə üçüncü yerdə gəlir. Bu barədə məlumat Çin Elmi və Texnoloji İnformasiya İnstitutunun, həmçinin Pekin Universitetinin birgə hazırladığı qlobal süni intellekt innovasiya indeksi üzrə hesabatda öz əksini tapıb.

Hesabatın müəllifləri 46 ölkəni beş meyar əsasında araşdırıblar. Ölkələr, həmçinin 39 göstərici üzrə təhlil edilib və onların hər biri üç pilləli sistem üzrə qiymətləndirilib.

Hesabata görə, ABŞ süni intellekt üzrə dünyaya böyük fərqlə liderlik edir. 100 ballıq sistem üzrə ABŞ 77,97 balla birinci, Çin 58,01 balla ikinci, Böyük Britaniya 36,60 balla üçüncüdür.

İlk onluqda həmçinin Yaponiya (33,77 bal), Koreya Respublikası (33,48 bal), Almaniya (32,22 bal), Sinqapur (31,57 bal), Fransa (30,98 bal), Kanada (29,79 bal) və Hindistan (29,41) yer alıb.

Aparılan tədqiqatda əsas diqqət süni intellektin altı kateqoriyası üzrə 30 göstəriciyə yönəldilib: istedad, tədqiqat, işləmələr, tətbiq, məlumatlar və avadanlıq.

Məlum olub ki, ABŞ startaplara investisiyalar və tədqiqat və işləmələrin maliyyələşdirilməsi kimi əsas sahələrdə liderdir. Öz növbəsində Çin bir neçə sahədə uğur qazanıb və digər ölkələrlə müqayisədə məhsuldarlığa görə dünyanın 500 ən güclü superkompüteri sırasına daxil olan daha çox superkompüter sayına malikdir.




Dünyada süni intellekt sahəsində bu və ya digər ölkənin liderlik etməsi öz yerində. Məsələ burasındadır ki, süni intellekt yarışı hazırda eyni zamanda güc mərkəzləri arasında siyasi rəqabətin yeni formasına çevrilib. İndiyədək dövlətlər iqtisadi, hərbi gücləri, siyasi çəkiləri ilə dünyaya meydan oxumağa çalışırdılar. Belə görünür ki, indi prioritet süni intellekt sahəsində digər rəqibləri daha böyük fərqlə arxada qoymaqdır.

**ABŞ-ın iddialı hədəfləri**

Süni intellekt sahəsində də qlobal liderliyini təmin edən ABŞ-ın bu sahədə gələcək hədəfləri çox iddialıdır. Ötən il Prezident Donald Tramp ölkədə süni intellekt texnologiyasını inkişaf etdirmək və ona əsaslanan müxtəlif inkişafların ixracını artırmaq məqsədi daşıyan üç sərəncam imzalayıb. "Amerika süni intellekt sahəsində yarışa başlayan ölkədir. Mən ABŞ prezidenti kimi bu gün Amerikanın qalib gələcəyini elan edirəm", - deyə Tramp Vaşinqtonda süni intellektin inkişafı ilə bağlı təşkil olunan konfransda bildirib. O, əmin edib ki, Birləşmiş Ştatlar hazırda süni intellekt sahəsində Çindən çox irəlidədir və bu üstünlüyünü möhkəmləndirmək niyyətindədir.

Amerika lideri qeyd edib ki, adıçəkilən konfransda imzaladığı icra sərəncamlarından biri ABŞ-ı süni intellektlə bağlı müxtəlif inkişafların "ixrac mühərrikinə" çevirmək məqsədi daşıyır. Ağ Evin dərc etdiyi sənəddən belə görünür ki, bu, xüsusən də Vaşinqtonun müttəfiqi olan ölkələrə ixtisaslaşmış kompüter avadanlığı və proqram təminatının satışına aiddir.

Trampın vurğuladığı kimi, Amerika administrasiyası tərəfindən görülən tədbirlər ABŞ-da süni intellekt infrastrukturu ilə bağlı bütün böyük layihələrin həyata keçirilməsini sürətləndirmək üçün mümkün olan hər şeyi etməyə yönəlib. Onun sözlərinə görə, bu, federal hakimiyyət orqanları tərəfindən bu sahədə bütün lazımi icazə və lisenziyaların verilməsini sürətləndirməyi tələb edir.

Amerika prezidenti həmçinin qeyd edib ki, Çinlə uğurla rəqabət aparmaq üçün Birləşmiş Ştatlar süni intellektin öyrədilməsi üçün istifadə oluna biləcək müxtəlif materiallar üçün əqli mülkiyyət hüquqlarına riayət olunması ilə bağlı tələbləri yumşaltmalıdır. "Hər məqalə, kitab və ya öyrəndiyiniz hər hansı bir şey üçün pul ödəməlisinizsə, süni intellekt proqramının uğurlu olacağını gözləmək olmaz",- deyə D. Tramp vurğulayıb.

**Çindən verilən mesajlar**

Si Cinpin Şanxayı konfrans iştirakçıları tərəfindən təsis edilmiş süni intellekt sahəsində əməkdaşlıq üzrə beynəlxalq təşkilatın qərargahı elan edib. Çin süni intellektin inkişafı və idarə olunmasında beynəlxalq ictimaiyyəti birləşdirməyi planlaşdırır. Si Cinpin qeyd edib ki, dünya miqyasında süni intellektin innovasiyası həmişəkindən daha aktivdir və bu cür texnologiyalar həmişə insan nəzarəti altında olmalıdır. O həmçinin qeyd edib ki, "məsuliyyətli böyük bir ölkə olaraq, Çin həmişə süni intellektlə bağlı beynəlxalq ictimai mallar təqdim etməyə sadiqdir". Çin lideri əlavə edib ki, süni intellektin inkişafı "bir ölkənin tək ifası deyil, beynəlxalq əməkdaşlığın simfoniyası" olmalıdır. Çin lideri vurğulayıb ki, Qlobal Cənubun çağırışına cavab olaraq Çin "beynəlxalq ictimaiyyəti süni intellektin inkişafını və idarə olunmasını fəal şəkildə təşviq etmək üçün birləşdirmək" üzərində işləyəcək.

Çin Şanxayda bəyan etdiyi süni intellekt sahəsində beynəlxalq əməkdaşlıq strategiyasına uyğun olaraq növbəti beş il ərzində inkişaf etməkdə olan ölkələr üçün 5000 təlim və seminar imkanı təqdim edəcək. Si Cinpinin sözlərinə görə, Çin ASEAN, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, Latın Amerikası və Karib Dövlətləri Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və BRICS ilə süni intellekt sahəsində beynəlxalq əməkdaşlıq mərkəzlərinin yaradılmasını dəstəkləyəcək.

Həmçinin Si Cinpin bildirib ki, süni intellektlə işləyən MAZU meteoroloji erkən xəbərdarlıq sistemindən istifadə üçün 30 ölkəyə dəstək göstərəcək.

**Azərbaycan üçün rəqəmsal idarəetmə dövrü**

Hər zaman öz gündəliyində qlobal çağırışları nəzərə alan Azərbaycan üçün də rəqəmsal idarəetmə dövrü başlayıb. Müasir dövlət kimi inkişaf edən respublikamız rəqəmsal idarəçilik modelinə keçidi özünün prioritetlərindən biri kimi müəyyənləşdirib. Effektiv keçidi təmin etmək məqsədilə institusional və hüquqi bazanın yaradılması istiqamətində müəyyən yol keçilib və ilk nəticələr əldə olunub. Cari ilin yanvar ayında Prezident İlham Əliyevin müvafiq fərmanı ilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiqlənib. Fevral ayında dövlətimizin başçısının sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurası çevik fəaliyyət göstərir. İyunun 29-da Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda önəmli müzakirələr aparılıb, Birinci vitse-prezident müvafiq qurumlara öz tapşırıqlarını verib.

Beləliklə, ölkədə rəqəmsal idarəçilik modelinə keçidlə bağlı dövlətin siyasi iradəsi ortadadır. Buna uyğun olaraq da ölkə miqyasında rəqəmsal idarəçilik modelinə keçidin, mərkəzi və yerli icra strukturlarında fəaliyyətlərin elektron platformalar üzərindən həyata keçirilməsinin əhatə dairəsi getdikcə genişlənir və bu, beynəlxalq səviyyədə də təqdir olunur.

Buna misal olaraq qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu "Heç kəsi geridə qoymamaq naminə inklüziv və ədalətli xidmətlərin göstərilməsi" kateqoriyası üzrə "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülüb.

BMT-yə 63 ölkədən təqdim olunmuş 700 təşəbbüs arasından DSMF və digər ölkələrdən 7 müvafiq dövlət qurumu bu mükafatla təltif edilib. Gürcüstan paytaxtında keçirilən, 100-ə yaxın ölkədən 420 nümayəndənin iştirak etdiyi BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində təşkil olunan təltifetmə mərasimində mükafat DSMF-nin İdarə Heyətinin sədri Zəka Mirzəyevə təqdim olunub.

Fond BMT-nin Dövlət Xidmətləri Mükafatına sosial təminat sahəsində son illər həyata keçirdiyi innovativ islahatlara, xüsusilə sosial ödənişlərin proaktiv qaydada təyin olunmasına, rəqəmsal texnologiyalar əsasında qurulmuş vətəndaşyönümlü xidmət modelinə, sosial xidmətlərin əlçatanlığının, operativliyinin, şəffaflığının və inklüzivliyinin artırılması istiqamətində əldə etdiyi mühüm uğurlara görə layiq görülüb.

***Mübariz FEYİZLİ***

## ABŞ Konqresində hökumətin maliyyələşdirilməsi haqqında qanun layihəsi qəbul edilib



ABŞ Konqresinin Nümayəndələr Palatası federal idarələrin maliyyələşdirilməsinin bu il dekabrın 4-dək cari səviyyədə saxlanmasını nəzərdə tutan qanun layihəsini qəbul edib.

Sənəd aralıq seçkiləri ərəfəsində maliyyə ilinin sonunadək şatdaunun qarşısını almağa yönəlib.

Qanun layihəsini 220 konqresmen dəstəkləyib, 205 nəfər isə əleyhinə çıxış edib.

Qanun layihəsi baxılmaq üçün Senata təqdim olunacaq. "The Hill" qeyd edir ki, ən azı 60 senatorun dəstəyini əldə etmək zərurəti və demokratların mümkün müqaviməti səbəbindən onun qəbulu çətinliklərlə üzləşə bilər.

ABŞ-da maliyyə ili oktyabrın 1-dən sentyabrın 30-dək davam edir, Konqresə aralıq seçkiləri isə 2026-cı il noyabrın 3-nə planlaşdırılıb.

## Bab əl-Məndəb boğazında artan gərginlik dəniz ticarətini daha da çətinləşdirib

Yaxın Şərqdə artan geosiyasi gərginlik Hörmüz boğazından Bab əl-Məndəb boğazına qədər yayılıb. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, ikinci vacib dəniz marşrutunun bağlanması təhlükəsi qlobal enerji təchizatı və dəniz gəmiçiliyində pozuntularla bağlı narahatlıqları da artırıb.

Davam edən ABŞ-İran münaqişəsi Hörmüz boğazından keçən kommersiya gəmiçiliyi demək olar ki, dayandırıb. Bu vəziyyət neftin qiymətlərinin artmasına səbəb olub, "Brent" markalı xam neftin qiyməti bir barel üçün 90 dollara yaxınlaşıb.

İranın dəstəklədiyi yəmənli husilər ABŞ ilə İran arasında artan gərginlik fonunda Səudiyyə Ərəbistanına blokada tətbiq edib və Hörmüz boğazındakı hadisələrdən sonra Bab əl-Məndəbdə də gərginliyi artırıb.

Husilər iddia edirlər ki, Ər-Riyad Yəmənin Səna beynəlxalq hava limanına hava hücumu həyata keçirib və İranda dəfn mərasimindən qayıdan husi liderlərini daşıyan təyyarəni hədəf alıb. Onlar qisas aktı olaraq, Səudiyyə Ərəbistanının Əbha beynəlxalq hava limanına raketlər və pilotsuz uçuş aparatları (PUA) ilə hücum ediblər.



Üsyançı qrup Səudiyyə Ərəbistanı ilə əlaqəli gəmiçilik üçün Bab əl-Məndəb boğazını bağlayıb və Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiyaya qarşı Yəmən hava məkanında və limanlarda blokada tətbiq edib.

Bəyanatdan sonra Bab əl-Məndəb boğazından keçən xam neft tankerlərinin sayı 69 faiz azalıb. Bazar ertəsi günü boğazdan təxminən 16 gəmi keçib, çərşənbə axşamı isə bu rəqəm beşə düşüb. Çərşənbə günü Bab əl-Məndəb boğazından cəmi doqquz gəmi keçib.

"ING Group" şirkətinin baş nəqliyyat və logistika iqtisadçısı Riko Luman bildirib ki, yeni hücumların olmamasına rəğmən husilərin açıqlaması Bab əl-Məndəb boğazından keçməklə bağlı riskləri dərhal artırıb, yükdaşımalarının qiymətləri və sığorta haqları qalxıb və bu da əlavə xərclərə səbəb olub. O əlavə edib: "Bu, neft bazarlarına əlavə təzyiq göstərir, çünki Yanbu limanı Səudiyyə Ərəbistanı üçün alternativ ixrac mərkəzi kimi daha intensiv istifadə olunur. Təhlükəni aradan qaldırmaq üçün Aralıq dənizi vasitəsilə Afrikanın şimalına üzmək daha çox vaxt aparacaq. Konteyner daşımaları üçün bərpa planları da təxirə salına bilər. Çünki "Maersk" və "Hapag-Lloyd" Qırmızı dəniz vasitəsilə bəzi xidmətləri bərpa edib ki, bu da Afrika ətrafında uzunmüddətli dolama yollardan istifadəyə səbəb ola bilər".

# Tariflər 12 faizə qədər qalxa bilər...

## Trampın yeni qərarı nəyə hesablanıb?

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp onlarla ölkəyə yeni tariflər tətbiq etməyə hazırlaşır. "Financial Times" mənbələrə istinadən xəbər verir ki, Prezident Tramp müşavirlərin ara seçkilərdən əvvəl bu cür addımların əks-effekt verə bilməsi xəbərdarlığına etinasız yanaşır. Qeyd edək ki, Prezident tərəfindən tətbiq edilən 10 faiz tariflərin müddəti bu həftə bitir. Qəzetin məlumatına görə, ABŞ rəsmiləri Trampa tarifləri saxlamağa imkan verən bir neçə variant hazırlayıblar. Rəsmilər əvvəllər Trampın bir çox tariflərin, o cümlədən mal əti və qəhvə idxalına, eləcə də polad və alüminium məhsullarına tətbiq edilən rüsumların yumşaldılmasını təmin etmişdilər.

### Yeni tariflər: kimə, nə qədər...

Yeni tariflər 10 faizdən 12,5 faizə qədər dəyişə və 60 ölkəyə tətbiq oluna bilər. Aİ, Çin, Sinqapur, İsveçrə, Norveç, İndoneziya, Malayziya, Kamboca, Tayland, Cənubi Koreya, Vyetnam, Tayvan, Banqladeş, Meksika, Yaponiya və Hindistan da bu siyahıya daxildir. Məhdudiyyətlər ABŞ-ın mart ayında başlatdığı məcburi əməyin istifadəsi ilə bağlı araşdırmanın nəticələrinə əsaslanacaq. Proses 1974-cü ildə qəbul olunmuş Ticarət Qanununun 301-ci maddəsi çərçivəsində aparılır. Bu mexanizm administrasiyaya Ali Məhkəmə tərəfindən əvvəllər ləğv edilmiş tariflərin tətbiq edildiyi prezidentin fövqəladə səlahiyyətlərinə müraciət etmədən tariflər tətbiq etməyə imkan verəcək.

Mənbələr FT-yə bildiriblər ki, Trampın müşavirləri onu ticarət tərəfdaşları ilə münasibətlərdə sabitliyi qorumağa və 2025-ci ildə əldə edilən tarif endirimi sazişlərinə əməl etməyə çağırıblar. Nəşr ehtimal edir ki, ticarət qarşıdurmasını yeniləmək planları ABŞ və İran arasında artan münaqişə fonunda ortaya çıxıb. Müharibə qlobal enerji bazarında sabitliyi pozub və ABŞ-da benzinin qiyməti bu həftə yenidən bir qallon üçün 4 dolları keçib.

### Kanadaya 50 faiz...

Ən sərt addım isə Kanadaya münasibətdə atılıb. Belə ki, ABŞ Prezidenti Donald Tramp Kanadadan idxal olunan bir sıra məhsullara əlavə 50 faiz tarif tətbiq edib. Müvafiq fərman Ağ Evin internet saytında dərc olunub.

Sonradda qeyd olunur ki, bu addım "Kanadada Amerika məhsullarına qarşı ayrı-seçkiliyə cavabdır": "Söhbət Kanada mallarının bütün çeşidinə - şərabdan xokkey çubuqlarına və sementə qədər 50 faiz tariflərdən gedir".

Sonrada əsasən tariflər enerji, kalium, balıq və nadir torpaq metallarına şamil edilməyəcək. Yeni tədbirlər həmçinin artıq tariflərə məruz qalan müəyyən mallara da təsir etməyəcək.

Kanadanın Baş naziri Mark Karni isə ABŞ Prezidenti Donald Trampla telefon danışığından sonra iki ölkə arasında tariflərlə bağlı danışıqların sürətləndiriləcəyini açıqlayıb. Bu barədə CBC məlumat yayıb. Karni bildirib ki, tərəflər qarşıdakı həftələrdə danışıqları intensivləşdirmək barədə razılığa gəliblər. O, Kanada hökumətinin bu istiqamətdə fəaliyyətə dərhal başlayacağını qeyd edib, lakin ABŞ-ın tətbiq etdiyi tariflərə mümkün cavab tədbirləri barədə ətraflı məlumat verməyib.

### Məhkəmələr ləğv etmişdi...

Xatırladaq ki, bu ilin fevralında ABŞ Ali Məhkəməsi Trampın 2025-ci ilin aprelində "Azadlıq Günü" elanından sonra tətbiq edilən tarifləri ləğv edib. ABŞ prezidenti məhkəmənin qərarını gülünc adlandırıb. Amerika lideri həmçinin bildirib ki, tarif metoduna qarşı səs verənlər "özlərindən utanmalıdırlar". Bundan dərhal sonra Tramp 24 iyulda başa çatan 150 gün müddətinə "bütün ölkələrə" əlavə 10 faiz tarif tətbiq edən sərəncam imzaladı.

Qeyd edək ki, bu ilin may ayında ABŞ Federal Ticarət Məhkəməsi xarici idxala tətbiq edilən 10 faizlik tarifin qanunsuz olduğuna qərar vermişdi. Tramp da öz növbəsində hakimləri "radikal solçu" adlandırmışdı.




### Yeni tarif siyasəti qlobal iqtisadiyyat üçün hansı riskləri daşıyır?

Siyasi ekspertlər 60 ölkəyə qarşı yeni gömrük tariflərinin tətbiq edilməsini qlobal ticarət sistemində yeni gərginlik mərhələsinin başlanğıcı kimi qiymətləndirirlər. Bildirilir ki, tariflərin 10 faizdən 12 faizə və bəzi məhsullar üzrə daha yüksək səviyyəyə qaldırılması ilk növbədə ABŞ bazarına ixrac edən ölkələrin rəqabət qabiliyyətini zəiflədəcək, istehsal və ixrac xərclərini artıracaq. Bu isə beynəlxalq ticarətin həcminin azalması, təchizat zəncirlərində yeni problemlər və inflyasiya təzyiqlərinin güclənməsi ilə nəticələnə bilər.

Ekspertlər hesab edirlər ki, Vaşinqtonun əsas məqsədi yerli istehsalı qorumaq, sənaye sektorunu gücləndirmək və xarici ticarət kəsirini azaltmaqdır. Qısamüddətli perspektivdə bu siyasət ABŞ iqtisadiyyatının müəyyən sahələrinə üstünlük qazandıra bilər. Lakin uzunmüddətli dövrdə cavab tarifləri, investisiya axınının zəifləməsi və qlobal bazarlarda qeyri-müəyyənliyin artması ABŞ iqtisadiyyatı üçün də əlavə risklər yarada bilər.

Yaxın Şərqdə, xüsusilə İran ətrafında təhlükəsizlik risklərinin yüksək olaraq qalması fonunda tarif siyasəti geosiyasi rəqabəti daha da kəskinləşdirə bilər. Analitiklərin qənaətinə görə, iqtisadi təzyiqlərlə hərbi-siyasi gərginliyin eyni vaxtda artması dünya bazarlarında enerji qiymətlərinin yüksəlməsinə, yeni siyasi bloklaşmalara və beynəlxalq münasibətlərdə qarşıdurma meyllərinin güclənməsinə səbəb ola bilər.

**SADİQ**

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

*əvvəli ötən saylarımızda*

Tavana göz gəzdirən məhbusun diqqətini daş plitələrdən birinin üstündəki qəribə fiqur çəkir: "Bu, Vaxt fiquruydu, onu adətən belə təsvir eləyirdilər, ilk baxışdan mənə qədim saatlardakı kəfkiri xatırlatdı. Diqqətlə baxanda gördüm ki, kəfkir elə bil hərəkət eləyir: çox yavaş, özü də kiçik amplitudlarla gedib-gəlirdi... Yarım saat, bəlkə də bir saat keçmiş yenidən tavana baxdım: kəfkirin amplitudları artmışdı, buna görə daha sürətlə yellənirdi. Bunlar bir yana, məni qorxudan indi saatın tavandan xeyli aşağı sallanmasıydı. Saatın aşağı hissəsi parıldayan polad aypara şəklindəydi, tavana tuşlanmış ucları arasındakı məsafə bir futa qədər olardı. Aypara özü isə ülgüc kimi iti, üstəlik ağır, iriydi. Tavandan yoğun mis məftillə asılmışdı, havada yelləndikcə fit səsi çıxarırdı... Saat yavaş-yavaş mənə doğru enirdi, günlər keçəndən sonra üzümə elə yaxınlaşmışdı ki, burnuma cilalanmış metal iyi gəlirdi..."

Beləcə, birinci tələyə düşmədiyinə görə cəlladlar ona başqa bir edam növü seçiblər. Əslində, bu cəza üsulu bizə yaxşı tanışdır, yaranışdan ömrü-günü saniyə-saniyə sananan, boynunun ardında daim fələyin qılıncı əsən cəmi bəşər övladına, cümlə məxluqata belə bir edam hökmü kəsilib. Fələk hər yaranmışın başının üstündə əcəl saatı qurub, burnunun ucunda qəbir quyusu qazıb əlibaltalı gözləyir. Edqar Ponun bu hekayəsində "Ölüm qətlin bir növüdür" deyən klassik ərəb şairindən tutmuş məzlum qəhrəmanı günahsız-dəlilsiz edam olunan Kafkaya qədər, "Başım cəllad əlində, nə kəsər, nə bağışlar" deyən aşıqdan tutmuş üsyankar qəhrəmanı suçunu boynuna mindirməyən Kamüyə qədər, əsərlərini "Qətl günü", "Ölüm hökmü" adlandıran Azərbaycan yazıçılarından tutmuş "Bir dərzi əlinə düşdük, qayçısı var, iynəsi yox", "Tanrı ölüm hökmü kəsib doğulmaq günahımıza" deyən Azərbaycan şairlərinə qədər əsrlər boyu əldən-ələ, dildən-dilə keçən poetik sözün minillik yaddaşı, ədəbiyyatın köhnəlməyən xatirəsi var. Po yaradıcılığı da bu gümüş zəncirin heç vaxt dəyərdən düşməyən ən qiymətli halqalarından biridir.

***

1849-cu ilin aprelində Kentukkidən olan Edvard Patterson adlı varlı pərəstişkarı Edqar Poya məktub yazıb birlikdə ümummilli jurnal təsis eləmək təklifində bulundu. Şərti də beləydi ki, işin maliyyə qayğısını bütünlüklə öz boynuna götürür, ədəbi məsuliyyətini yazıçının çiyninə qoyurdu. Po bu işə böyük həvəslə razılıq verdi, danışdılar ki, Sent-Luisdə görüşüb məsləhətləşsinlər, görüləsi işlərin planını tutsunlar, sonra birlikdə Nyu-Yorka yollansınlar. Yazıçı yubanmadan səfərə çıxdı - əvvəlcə bir neçə məntəqədə pullu mühazirələr söyləyəcək, sonra da gələcək şərikiylə tapışacaqdı.

İyunun 29-da Edqar Po Fordhemdən çıxıb Riçmonda istiqamət götürdü. Filadelfiyaya çatanda içib mühazirələrini saxladığı çantasını, yola götürdüyü bütün pulunu-parasını itirdi. Burada bir az ləngiyəndən sonra dostlarının yardımıyla Riçmonda çatdı. Birtəhər özünü yığışdırıb içməyə ara verdi, "Poetik prinsip" adı altında birləşdirdiyi proqram xarakterli esselərini bərpa eləyib publika qarşısında ədəbiyyata dair leksiyalar oxumağa başladı. Riçmondda Po uşaqlıq məhəbbəti Sara Elmira Roysterlə münasibətini təzələdi, dul qadına evlənmək təklif elədi. Mərhum ərindən Elmiraya böyük sərvət qalmışdı, odur ki, bu izdivac yazıçı üçün dünyanın qara qayğılarından qurtuluş ola bilərdi. Əvvəlki kimi yeganə problem onun içməsiydi - bundan bir neçə ay qabaq Sara Helen Uitman adlı xanıma içkini tərgitməyə dair verdiyi sözün üstündə durmadığına görə toy ərəfəsində nikahı pozulmuşdu, içkiylə suvardığı "təzad cini" günah rəngli pişiyindən can qurtarmağa çalışan zavallı qəhrəmanıtək onun da ağlını başdan almışdı. Odur ki, yazıçı ayıqlar cəmiyyətinə qoşulub spirtli içkidən uzaq duracağına and içdi. Toy oktyabrın on yeddisinə təyin olundu. Bu arada Edqar Ponun varlı şərikiylə birgə jurnal buraxmaq həvəsi də söndü (yəqin düşünürmüş ki, evlənəndən sonra həmin jurnalı heç kimi özünə ortaq tutmadan təkbaşına da çıxara bilər), ona görə də Pattersonla görüşü ertələdi, axırda onun məktublarını cavabsız qoydu.

Riçmondda mühazirələrini bitirəndən sonra yazıçı yeni səfərə hazırlaşdı: Filadelfiyada, Nyu-Yorkda yarımçıq işləri yekunlaşdırıb toya hazırlıq görməliydi. 1849-cu ilin 27 sentyabrında Po Baltimora üzən gəmiylə Riçmonddan çıxdı. Plana görə, Baltimordan qatarla Filadelfiyaya, oradan da Nyu-Yorka getməliydi...

Oktyabrın üçündə onu seçki məntəqəsi kimi də istifadə olunan bir tavernanın ətrafında anlaqsız vəziyyətdə tapdılar. Əynində kiminsə kirli köhnə paltarı, başında həsir şlyapa vardı. Nə fenomenal zəkasından, yaddaşından, nə də parlaq nitqindən əsər-əlamət qalmışdı, sözü sözə calaya bilmirdi. Başına nə oyun açıldığını, əşyalarının hara yox olduğunu, Baltimora necə gəldiyini xatırlamırdı. Oktyabrın altısı axşamı halı tamam qarışdı, isterik bir tərzdə ara verməndən Reynolds adlı bir nəfəri çağırmağa başladı. Oktyabrın yeddisi səhər saat beşdə okeanın üstündən köhnə qitəyə yeni-yeni körpü salan gənc Amerika ədəbiyyatının qırx yaşlı ulduzu Edqar Allan Po canını tapşırdı. Həkiminin dediyinə görə, son nəfəsində yazıçının dilindən bu sözlər çıxıb: "İlahi, mənim zavallı ruhuma kömək ol!"

Onun fəlakətinin gerçək səbəbi bu gün də bilinmir, əldə heç bir tibbi sənəd qalmayıb. Ortada altı versiya var: kimi onun içməkdən, kimi naməlum xəstəlikdən, kimi də pişik dişləməsi (bu pişik qəhrəmanının asdığı qara pişik olmasın?..) nəticəsində yaranmış quduzluqdan öldüyünü deyir; başqa bir versiyaya inansaq, yazıçını qəsdən zəhərləyiblər; bir ehtimal da budur ki, siyasətə bulaşmış cinayətkar şəbəkə onu hansı yollasa seçki karuselinə cəlb eləyib, istifadəyə yararsız hala salandan sonra lazımsız əşya kimi çölə tullayıb; nəhayət, son varianta görə, evlənmək üzrə olduğu qadının qardaşları bacılarının sərvətinə yiyə çıxmasın deyə yazıçını döyüb (yaxud döydürüb) bədəninə ölümcül xəsarətlər yetiriblər.

Səbəb hər nədirsə, nəticə birdir; əcəl istər qırmızı geyinsin, istər qara, fələyin əlində istər qılınc olsun, istər kəfkir, quyu istər suda qazılsın, istər quruda - ölümün ünvanı dəyişmir.

Onun cin müsəllət olmuş bərbad bədəni, bünövrəsini şiddətli zəlzələlər laxlatmış can evi axır davam gətirməyib yiyəsinin başına uçdu. Kamil ruh, parlaq zəka o dağıntıların altında qaldı. Yazıçı kimliyi bəxtiyar dinclik, əbədi şöhrət haqqı qazandısa da, şəxsi həyatı yer üzünə sürgündə keçdi, ta yetimyiyəsiz uşaqlığından miskin, kimsəsiz ölümünəcən fələk onu doyunca güldürmədi, qismətini ona əlini əsdirə-əsdirə verdi, istəyini, sevincini müdam qursağında qoydu.

Cəhənnəm sözçüsü qarğa demişdi axı: bu dünyada xoşbəxtlik yoxdur, "heç vaxt" xoşbəxt olmayacaqsan, heç bir vaxt - nevermore! O da müdrik qarğanın bildiyi tək kəlmə sözü qəribliyə salmadı. Olmadı.



**F.Uğurlu**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Həsən bəy Zərdabi adına Media Mükafatının laureatları mükafatlandırılıb



22 iyul - Milli Mətbuat Günü və Azərbaycan milli mətbuatının 151 illiyi münasibətilə Azərbaycan Jurnalistlər Birliyində (AJB) Həsən bəy Zərdabi adına Media Mükafatının təqdimetmə mərasimi keçirilib. Mərasimdə ölkənin media ictimaiyyətinin tanınmış nümayəndələri, dövlət qurumlarının rəhbərləri, jurnalistlər və ictimai xadimlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı milli mətbuatın keçdiyi 151 illik inkişaf yolundan, “Əkinçi” qəzetinin banisi Həsən bəy Zərdabinin Azərbaycan jurnalistikasının və maarifçilik hərəkatının formalaşmasındakı tarixi xidmətlərindən bəhs edib. O vurğulayıb ki, Həsən bəy Zərdabi adına Media Mükafatı milli jurnalistikanın inkişafına, peşəkar media prinsiplərinin qorunmasına və söz azadlığının möhkəmləndirilməsinə xidmət edən media nümayəndələrinin fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışında milli mətbuatın cəmiyyətin inkişafındakı rolundan, peşə etikası prinsiplərinin qorunmasının vacibliyindən və jurnalist həmrəyliyinin əhəmiyyətindən söz açıb. O bildirib ki, Həsən bəy Zərdabi adına Media Mükafatı peşəkar jurnalistikanın təşviqi və media cameəsində sağlam rəqabətin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirdə 2026-cı il üzrə Həsən bəy Zərdabi adına Media Mükafatının laureatları da elan olunub. Mükafata “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev, Anar Niftəliyev, Aydın Tağıyev, Elçin Zahiroğlu, Əkbər Qoşalı, Günel Habilqızı, Hüseynbala Səlimov, Xanım Xatun, İlham Tumas, İqbal Məmmədəliyev, Murat Akkoç, Mübariz Yunus, Nicat Abdullayev, Oktay Hacımusalı və Zərnişan Turan müxtəlif nominasiyalar üzrə media sahəsindəki səmərəli fəaliyyətlərinə görə layiq görülüblər.

Tədbirdə o da qeyd olunub ki, Azərbaycan Jurnalistlər Birliyi bundan sonra da Həsən bəy Zərdabinin maarifçilik irsinin yaşadılması, milli jurnalistikanın inkişafı və peşəkar media ənənələrinin qorunmasına xidmət edən media nümayəndələrinin fəaliyyətini yüksək qiymətləndirməyə davam edəcək.

Mərasimin sonunda xatirə şəkli çəkdirilib.



# Ağ xalat hər kəsi həkim etmir!

## Saxta diplomlular iş başında...



Tibb elə bir sahədir ki, burada edilən kiçik bir səhv insanın sağlamlığını, gələcəyini, hətta həyatını əlindən alır. Bu baxımdan, həkimlər cəmiyyətin ən məsuliyyətli və etibar edilən peşə sahiblərindən biri hesab olunur. İnsanlar xəstəxanaya və ya özəl klinikaya müraciət edərkən qarşılarındakı şəxsin həqiqətən də uzun illər təhsil almış, peşəkar bilik və bacarıqlara malik, dövlət tərəfindən tanınan ixtisas sahibi olduğunu düşünürlər. Ancaq heç kimin ağlına gəlmir ki, ağ xalat geyinmiş, tibbi terminlərlə danışan və özünü mütəxəssis kimi təqdim edən şəxs əslində tibb universitetində oxumayıb, saxta diplomla bu sahəyə gəlib.

## Pasiyentlər necə aldadılır?

Xüsusilə, estetik əməliyyatlara marağın artması ilə bu sahədə fəaliyyət göstərən “həkimlərin” sayı diqqətçəkən dərəcədə çoxalıb. Sosial şəbəkələrdə reklamlar, bahalı klinika görüntüləri, məşhur simalarla çəkilmiş fotolar və həqiqiliyi təsdiqlənməyən sertifikatlar vasitəsilə özlərini peşəkar kimi təqdim edən bu şəxslər insanların sağlamlığını, bəzən isə həyatını ciddi təhlükə altına qoyurlar.

Maraqlıdır, ixtisasını dəyişib sonradan plastik “cərraha” çevrilən “həkim”lərin əlində bayraq etdikləri kurslar və sertifikatların hüquqi qüvvəsi varmı, onlar hansı əsaslarla verilir?

Məlumdur ki, test imtahanlarında 500-600-dən yuxarı bal toplayan, həkim olmaq istəyən abituriyentlər 6 il tibb universitetlərində biliklərə yiyələnirlər. Lakin bu, onların hələ tam ixtisas sahibi olması anlamına gəlmir. Eləcə də təkcə tibb universitetini bitirməklə estetik cərrah kimi fəaliyyət göstərmək mümkün deyil.

## Qanun nə deyir?

Hüquqşünas Nadir Məmmədov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, ölkəmizdə tibbi fəaliyyət, o cümlədən həkimlik lisenziyalaşdırılmış fəaliyyətdir. Onun sözlərinə görə, həkimlər müəyyən müddətdə yenidən sertifikasiya imtahanı verməklə öz ixtisaslarında çalışırlar. Müəssisələr də tibbi fəaliyyət göstərdikləri zaman mütləq tibbi təhsili olan və sertifikatlaşdırma imtahanından keçən ali təhsilli həkimlər və tibb işçiləri ilə əmək müqaviləsi bağlamaqla öz fəaliyyətlərini tənzimləməlidir: “Lisenziya olmadan fəaliyyət göstərənlər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 210-cu maddəsinə əsasən məsuliyyətə cəlb edilirlər. Fiziki şəxslər 2 min manatdan 3 min manata, vəzifəli şəxslər 5 min manatdan 10 min manata, hüquqi şəxslər isə 20 min manatdan 30 min manatadək cərimə olunurlar. Bu sahədə vətəndaşların sağlamlığının qorunması ilə bağlı qanunvericiliyin pozulmasına görə də İnzibati Xətalar Məcəlləsinin 215-ci maddəsinə əsasən, fiziki şəxslər 300 manatdan 500 manata, vəzifəli şəxslər 800 manatdan 1000 manata, hüquqi şəxslər isə 6 min manatdan 8 min manatadək məbləğdə inzibati qaydada cərimə olunurlar”.

Hüquqşünasın sözlərinə görə, həkimlərin səhvi ucbatından vətəndaşların səhhətinə zərər dəyərsə, vətəndaşlar ilk növbədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna şikayət ərizəsi ilə müraciət etməlidir: “Baş prokurorluq müvafiq araşdırmanı aparır. Həmin müəssisənin lisenziyası, vergi ödəyicisi olub-olmadığı ilə bağlı sənədlər yoxlanılır. O cümlədən, orada çalışan həkimlərin tibb təhsilinə dair sənədlər hüquq-mühafizə orqanları tərəfindən yoxlanılır. Bundan sonra həmin tibb işçilərinin təqsiri aşkarlanarsa, vətəndaşların mülkü qaydada iddia qaldırmaq hüququ yaranır. Mülkü iddianın əsasında isə vətəndaşların sağlamlığına vurulmuş maddi zərər, o cümlədən, onların bu sahədə xərclədikləri maddi vəsaitlər geri qaytarıla bilər”.

Estetik cərrah Nüşabə Kərimova bildirib ki, estetik cərrahiyyə, sadəcə, görünüşü dəyişdirməkdən ibarət deyil. Bu sahə insan anatomiyasının, fiziologiyasının, toxumaların sağalma mexanizmlərinin və mümkün ağırlaşmaların dərindən öyrənilməsini tələb edən mürəkkəb tibbi ixtisasdır: “Bu səbəbdən estetik müdaxilələri yalnız müvafiq ali tibb təhsili almış, ixtisaslaşma keçmiş və peşə fəaliyyətinə hüquqi icazəsi olan həkim həyata keçirməlidir.Təəssüf ki, son illər özünü “estetik mütəxəssis”, “plastik cərrah” və ya “kosmetoloq” kimi təqdim edən, lakin tibbi hazırlığı olmayan, saxta diplomdan istifadə edən şəxslərin fəaliyyəti narahatlıq doğurur. Belə insanlar bəzən sosial şəbəkələrdə uğurlu reklam kampaniyaları aparır, cəlbedici qiymətlər təklif edir və pasiyentlərdə peşəkar təsəvvür yaradırlar. Halbuki estetik pro-

## Bahalı avadanlıqlar “həkimlərə” yardım etmir...

sedur zamanı verilən yanlış qərar sadəcə uğursuz görüntü ilə yekunlaşmır, infeksiya, toxuma nekrozu, sinir zədələnməsi, damar tutulması, qalıcı çapıqlar və hətta həyati təhlükə yaradan ağırlaşmalarla nəticələnə bilər.

Pasiyentlər bilməlidirlər ki, ağ xalat geyinmək və ya bahalı avadanlıqlara sahib olmaq heç kəsi həkim etmir. Əsl mütəxəssis hər bir prosedurdan əvvəl pasiyentin sağlamlıq vəziyyətini qiymətləndirir, riskləri izah edir, lazım gəldikdə müdaxilədən imtina edir və yalnız tibbi göstərişlərə əsaslanaraq qərar verir. Saxta diplomlu şəxs isə çox vaxt əsas məqsədini maddi qazanc üzərində qurduğu üçün pasiyentin təhlükəsizliyi ikinci plana keçir”.

## Reklamların ciddi monitorinqə ehtiyacı var...

Cərrah qeyd edib ki, insanlar estetik prosedura qərar verməzdən əvvəl həkimin ali tibb təhsilini, ixtisasını, peşə fəaliyyətinə icazəsini və işlədiyi tibb müəssisəsinin qanuni fəaliyyətini araşdırmalıdırlar: “Pasiyentin həkimdən diplomunu, sertifikatlarını və peşə təcrübəsini soruşmaq hüququ var. Bu, etimadsızlıq deyil, sağlamlığı qorumağın ən təbii yoludur. Saxta diplomlu şəxslərlə mübarizə yalnız hüquq-mühafizə orqanlarının işi deyil. Səhiyyə qurumları nəzarəti gücləndirməli, özəl klinikalarda çalışan mütəxəssislərin sənədləri mütəmadi yoxlanılmalı, vətəndaşlar isə şübhəli halları aidiyyəti qurumlara bildirməlidirlər. Sosial şəbəkələrdə yayılan reklamların da daha ciddi monitorinqə ehtiyacı var, çünki bir çox insan məhz internetdə gördüyü görüntülərə inanaraq sağlamlığını riskə atır”.

## Səhiyyə Nazirliyi saxta həkimlərlə mübarizə apara bilər?

Özəl tibb müəssisələrində həkimlərin fəaliyyətinin qanuniliyini yoxlayan qurum Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzidir. Mərkəz təkcə klinikaları yox, aptekləri, dərman idxalçılarını, estetik mərkəzləri də yoxlamaq səlahiyyətinə malikdir. Mərkəzin məlumatına görə, Azərbaycanda və ya xaricdə tibb üzrə təhsil almış həkimlərin ixtisas dəyişməsi, lisenziyası və sertifikatı Analitik Mərkəz tərəfindən verilmir: “Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən qanunvericiliyə müvafiq qaydada özəl tibb fəaliyyəti üzrə planlı (növbəti) və plandankənar (növbədənkənar) yoxlamalar aparılır. Mərkəz tərəfindən yalnız özəl tibb fəaliyyəti üzrə sahibkarlıq subyektləri qanunvericiliklə müəyyən edilən qaydada, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunu rəhbər tutularaq yoxlanılır.

Analitik Ekspertiza Mərkəzi əməkdaşları olan yoxlayıcılar tərəfindən səlahiyyətləri çərçivəsində aidiyyəti üzrə aşkar edilən bütün qanun pozuntuları ilə əlaqədar sahibkarlıq subyektlərinə inzibati qaydada tənbeh tədbirləri seçilərək barələrində tərtib olunan inzibati xəta haqqında protokollar Səhiyyə Nazirliyinin Hüquq şöbəsinə növbəti icraatı üçün təhvil verilir. Nəzarət tədbirləri zamanı nöqsanlar aşkar olunduqda müvafiq qanunvericilikdə nəzərdə tutulan qaydada inzibati tənbeh tədbirləri (inzibati cərimə) görülür, təkrar aşkar edildikdə, əlavə tədbirlər həyata keçirilir. Xüsusi ağır hallarda, həmçinin ölüm faktları zamanı isə bu məsələ məhkəmə-tibbi ekspertizası və hüquq-mühafizə orqanlarının səlahiyyətinə keçir”.

*Yeganə BAYRAMOVA*



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4490**
**Sifariş: 933**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova